## NİYƏ GÖRÜŞDÜRDÜ TƏSADÜF BİZİ

*Niyə görüşdürdü təsadüf bizi,*
*Əgər bu ayrılıq vardısa onda.*
*Gərək ayrılaydıq, bir-birimizi*
*Başa düşməyəndə, anlamayanda.*

*Yaxın düşməsəydim sevən könlünə,*
*Səndən ayrılmağa axı nə vardı?*
*Bilirsən, əzizim, o zaman mənə*
*Səni unutmaq da asan olardı.*

*İndi yaşayardım qəmindən uzaq,*
*Gözüm də, könlüm də, qulağım da dinc!..*
*De, nəyə gərəkmiş qəminə ortaq*
*Eniylə uzunu görünən sevinc?*

*Ayrılıq daha çox sarsıdır bizi,*
*Gənclik köç edəndə, yaş ötüşəndə.*
*Çətindir ayrılmaq - bir-birimizi*
*Yaxından anlayıb, başa düşəndə.*

## BURAXAN DEYİLƏM

*Təkəm... Üşüyürəm...*
*Xatirələri*
*Atdım yapıncıtək, çiynimə yenə.*
*Atdım ki, çiynimə, qovum kədəri -*
*Qəlbimdə soyuq da dəyməsin sənə.*

*Sənin də dərd-sərin bəllidir mənə,*
*Bilirəm, ürəyin hicrimlə yanıb.*
*Yoluma nur saçan pəncərən yenə*
*Büllur göz yaşından tumurcuqlanıb.*

*İstədim qəmini mən iki bölüm,*
*Gəlim hüzuruna, ey ömrüm-günüm.*
*Birdən səni gördüm, kövrəldi könlüm*
*Qürbətdən qayıdan qəribə döndüm.*

*...Bir də yem etmərəm dərdə qəlbimi,*
*Buraxan deyiləm səni yanımdan.*
*Çəkdiyim o həsrət bir ağrı kimi*
*Hələ indi-indi çıxır canımdan.*

## KƏDƏRLİ ANLARIM

*Nə vaxt ki, bir misra yaza bilmirəm.*
*Sanıram qurumuş bir budağam mən.*
*Dərsini bilməyib sinifdə qalmış*
*Ən əfəl, ən tənbəl bir uşağam mən.*

*Bir fikri deməyə gecikəndə mən*
*Bürüyər könlümü təəssüf, ələm.*
*Özümü dərsə çox gecikdiyimdən*
*Bir küncə qoyulmuş şagird bilərəm.*

*Mən şeir deyəndə məni büsbütün*
*Dinləyən olmasa gizli yanaram.*
*Qoy açıq söyləyim özümü o gün*
*Məktəbdən qovulmuş uşaq sanaram.*

## ŞEİRLƏRİM

*Yenə də ovcumdadır*
*Ömrümün bir gecəsi*
*Sıxıram gecəni mən*
*Sıxıram - vərəqlərə*
*Söz - söz damır şirəsi*
*Sıxacağam -*
*ovcumda qalanadək gecəni.*
*Beləcə ötüb keçən*
*Günlərimin öz sözü*
*Öz səsidir şeirlər*
*Bir az sevinc qarışıq,*
*Bir az kədər qarışıq*
*Sıxılmış günlərimin şirəsidir şeirlər.*

## SƏNSİZ DARIXMIŞAM

*Şəhər evlərinə sığışmıram mən,*
*Beton divarları, de, necə sevim?*
*Çoxdandır yanına yığışmıram mən,*
*Bağışla sən məni, ay ata evim.*

*Yoruldun sən mənə "gəl", "gəl" deməkdən,*
*Tükəndi söhbətin, qurudu arxın.*
*Arxamca boylanıb yol gözləməkdən,*
*Gözün nurdan düşdü,*
*söndü çırağın...*

*Gəlir uşaqlığım, gəlir yadına,*
*Necə oxşayardım çəmən telini.*
*Səsləyib yoruldun,*
*saldın yanına*
*Bacandan yüksələn tüstü əlini.*

*Bilirəm, əlini məndən üzərək*
*Küsüb oturmusan daş üstündə sən.*
*Məni görən kimi, sandım uşaqtək*
*Sevincdən üstümə yüyürəcəksən...*

*Sənsiz darıxmışam, darıxmışam mən,*
*Hasarın boyuma sanki biçilib.*
*Mən qoyub getdiyim o ev deyilsən,*
*Bir az sınıxmısan,*
*Boyun kiçilib...*

*Üfürüb sobanı nəfəsimlə mən,*
*Çoxdan oxşamıram tüstü telini.*
*Odunlar istidən bişən, ləhləyən,*
*İt kimi çıxartmır alov dilini.*

*Qəlbimdə həmişə doğmadır yerin,*
*Səninlə könlümə bir qürur gəlib.*
*Silinib toz basmış pəncərələrin,*
*Elə bil gözünə işıq, nur gəlib.*

*Dəyişib səmtini zaman da sanki,*
*Salıb öz yolunu indi yanından.*
*Bacadan yüksələn tüstü deyil ki,*
*Çəkdiyin həsrətdi çıxır canından.*

## YAŞAMAQ EŞQİ

*Qəbristanlıq...*
*Sinif otağı kimi sakit.*
*Elə bil kimsə sual verib,*
*dinc qoymayıb dilini:*
*-Kim yaşamaq istəyir?*
*Hamı əlini qaldırıb,*
*başdaşına dönmüş əlini...*

Vaqif İbrahim

Ədalət .- 2025.- 24 oktyabr (№40).-S.14.